**SEYMUR MƏMMƏDOV**
*BDU "Politologiya və sosiologiya" kafedrasının dissertantı*

# ENERJI DAŞIYICILARININ DIFERSIFIKASIYASI AZƏRBAYCAN MILLI MARAQLARINA UYĞUNDUR

***Azərbaycanın böyük neft və qaz sərvətlərinə malik olması bizim xalqımızın xoşbəxtliyidir və bu gün üçün, gələcək üçün xalqımızın yaxşı yaşaması üçün ölkəmizin yaxşı yaşaması üçün ən əsas amildir.***

***Heydər Əliyev.***

Müstəqillik tariximizin ilk illərində, neft və qaz hasilatının artırılmasına ölkənin qarşıdakı iqtisadi və sosial çətinliklərinin aradan qaldırılmasının əsas vasitələrindən biri kimi baxılırdı. Belə bir şəraitdə, maliyyə vəsaitinin məhdudluğu xarici şirkətlərin və investorların cəlb olunmasını strateji zərurətə çevirmişdi. Lakin Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə yanaşı, ölkəni bürümüş daxili ziddiyətlər, səbatsızlıq, özbaşınalıq qərbin neft şirkətlərini Azərbaycandan çəkindirirdi. Aparılan danışıqlarda isə ölkənin iqtisadi maraqları tam təmin olunmurdu. Ölkəmizin neftə maraq göstərən xarici neft şirkətləri ilə hələ 80-ci illərin axırlarından aparılan danışıqları artıq 1993-cü ilin yazında başa çatmaq üzrə idi. Həmin dövrdə Azərbaycan elə bir müqavilənin imzalanmasına yaxınlaşmışdı ki, o, nəinki xalqın mənafelərini nəzərə almır, həmçinin ölkənin qiymətli təbii sərvətini talan edərək iqtisadiyyata böyük ziyan vura bilərdi. 1993-cü ildə milli lider Heydər Əliyevin xalqın təkidli –tələbi ilə hakimiyyətə qayıdışından sonra ölkədə qısa müddət ərzində sabitlik bərpa olundu. Ölkənin iqtisadi imkanlarının səfərbər olunması, dövlətin malik olduğu təbii sərvətlərin istismarına xarici investisiyaların cəlb edilməsi məqsədilə cəsarətli siyasi addımlar atıldı. Bu baxımdan Azərbaycanın neft və qaz ehtiyyatlarının genişimqyaslı istismarına xarici investisiyaların cəlb edilməsində 1994-cü ilin sentyabrın 20-də Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq»və «Günəşli» yataqlarının birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında 8 ölkənin 13 ən məhşur neft şirkəti arasında bağlanmış «Əsrin müqaviləsi» xüsusi yer tutur. Saziş müstəqil Azərbaycanın yeni tarixinin şanlı səfəsini açdı və «Yeni neft strategiyası»ı və doktrinasının uğurla həyata keçirilməsinin əsasını qoydu. Sonradan haqlı olaraq «Əsrin müqaviləsi» adlandırılan bu saziş həqiqətən Azərbaycanın neft salnaməsinə əbədi həkk olundu. Milli lider Heydər Əliyevin təşəbbüsü ilə bağlanmış müqavilə xalqın rifah halının yaxşılaşdırılmasında yeni dövrün əsasını qoydu. Bu strategiyanın gerçəkləşməsi və beynəlxalq neft şirkətləri ilə sazişlərin imzalanması sayəsində ölkənin neft ehtiyyatlarının istismarına çoxmilyardlı xarici investisiyalar cəlb edildi. Məhz bu müqavilədən sonra dünya dövlətlərinin Azərbaycan iqtisadiyyatına yatırım qoymaq marağı daha da artdı. Bu isə öz növbəsində ölkəmizin beynəlxalq əlaqələrinin genişlənməsinə güclü təkan verdi.(1, s.21)

Beynəlxalq neft sazişlərində iştirak edən şirkətlərin dövlətləri ilə səmərəli və qarşılıqlı faydalı əməkdaşlığın inkişafı üçün əsaslı təməl quruldu, ölkənin geosiyasi mövqeyinin daha da möhkəmlənməsi, dünya iqtisadiyyatına inteqrasiya prosesinin sürətlənməsi üçün şərait yarandı. Neft və qaz sənayesinə xarici şirkətlər tərəfindən qoyulan sərmayələr özlüyündə ölkəyə əlavə qazanc gətirir ki, bu da yalnız neft sənayesinin yox, qeyri-neft sənayesinin inkişafına böyük stimul yaradırdı. Neft sektoru Azərbaycan üçün təkanverici bir vasitə idi. Neft amili hər zaman məqsəd yox vasitə olub. Milli lider Hey-

dər Əliyevin müəllifi olduğu «Yeni neft strategiyası»nın əsas istiqamətlərindən biri ölkəmizin enerji resurslarının dünya bazarlarına müxtəlif marşurutlarla çıxarılması idi. Çünki, Azərbaycanın artan enerji daşıyıcılarının şaxələndirilməsi milli maraqlarımıza cavab verirdi. Bu baxımdan 1996-cı il fevralın 18-də neftin Rusiya ərazisindən keçməklə qara dənizin Novorossiysk limanına nəql olunması haqqında imzalanmış müqavilə xüsusi yer tutur. Müqavilənin ilkin şərtlərinə uyğun olaraq 1330 km kəmərlə Azərbaycan nefti 1997-ci ilin oktyabrın 25-dən şimal boru kəməri vasitəsilə dünya bazarına çıxdı. Lakin yeni neft marşurutlarının alternativliyi gündəmdə duran əsas məsələlərdən idi. Çünki bu ölkəmizin hər hansı bir dövlətdən iqtisadi asılılığına son qoymaqla yanaşı milli mənafelərimizə də cavab verirdi. Bütün bu amilləri nəzərə alan milli lider Heydər Əliyev davamlı təzyiqlərə baxmayaraq müdrik və uzaqgörən qərar qəbul etdi. 1996-cı il martın 8-də Azərbaycan prezidenti Heydər Əliyev və Gürcüstan prezidenti Eduard Şevardnadze Tibilisidə Bakı-Supsa neft kəmərinin çəkilməsi barədə razılığa gəldilər. Bakı-Supsa neft kəməri ilə ilkin neft 1999-cu il aprelin 17-də ixrac olunmağa başladı. Marşurutun ən böyük üstünlüyü o idi ki, neftimiz təmiz halda «azəri light» markası ilə dünya bazarına çıxırdı. Bundan başqa kəmərin digər üstünlüyü neftin Novorossiyskə nisbətən daha ucuz nəql olunması idi. Yeni quyulardan neft hasil olunduqca ixrac imkanlarımız da artırdı. Proqnozlara əsaslansaq Azərbaycanın malik olduğu qara qızıl potensialı ölkəmizdə 2010-cu il üçün 65-70 mln ton neft hasil etməyi nəzərdə tuturdu ki, bu da neftin ixracı üçün yeni əsas boru kəmərinin çəkilməsini zəruri edirdi.(2, s.11) Qazaxıstan və Türmənistanın neft ehtiyatlarını Azərbaycan vasitəsilə nəql etmək perspektivini də nəzərə alanda bu zərurət daha da artmış olurdu. Belə bir durumda milli lider Heydər Əliyev əsas ixrac kəməri olan BTC layihəsini reallaşdırmaq sahəsində fəaliyyətə başladı. Təsadüfi deyil ki, BTC kəmərinin istifadəyə verilməsi milli liderin neft strategiyasının təntənəsi sayılır. Şərq-qərb enerji dəhlizinin mühüm qolunu təşkil edən «Bakı-Tibilisi-Ceyhan» əsas ixrac boru kəməri layihəsi artıq dövrümüzün reallığına çevrilib. İlk olaraq 1998-ci ilin oktyabrın 19-da BTC-nin tikintisi ilə bağlı «Ankara bəyannaməsi» imzalandı. 1999-cu il noyabrın 18-də isə ATƏT-in İstanbul zirvə toplantısında «xam neftin Azərbaycan, Gürcüstan və Türkiyə əraziləri ilə BTC əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair» saziş imzalandı. Həmin sənədə sözügedən üç ölkənin dövlət başçıları ilə yanaşı, ABŞ və Qazaxıstan prezidentləri də imza atdılar. Bu saziş kəmərin tikintisinə yol açan, «Əsrin müqaviləsi»ndən sonra Azərbaycan üçün tarixi əhəmiyyət kəsb edən ikinci sənəd idi. Əslində, boru xəttinin tikilməsi zərurəti də «Əsrin müqaviləsi»nin real nəticələr verməsindən irəli gəlirdi. Bütün dünyaya gün kimi aydındır ki, Heydər Əliyev dühası, uzaqgörənliyi, mübarizliyi olmasaydı, «BTC» də olmazdı. Kəmərin öz müəllifinin yəni milli liderimiz Heydər Əliyevin adını daşıması heç də təsadüfi deyil. Türkiyə xalqı və hökuməti həmin ölkənin ərazisində yerləşən ceyhan terminalına Heydər Əliyevin adını verib. 2002-ci sentyabrın 18-də, Səngəçal terminalında BTC-nin təməli qoyularkən milli liderimiz bildirmişdi ki, Bakı-Tibilisi-Ceyhan boru xəttinin əleyhinə çıxanlar çox vaxt belə söyləyirdilər ki, bu xəyaldır, mümkün deyil. Azərbaycanda o qədər neft yoxdur. Belə danışanlar çox idi. Zaman çox keçdiyinə görə bəziləri bu danışıqlara inanmırdılar. Ancaq bunların hamısı əsassız oldu. Biz öz işimizi gördük. BTC-nin maliyyələşməsi məsələsi də problem kimi ortaya çıxanda bu müşkülü də milli lider Heydər Əliyevin dünya miqyaslı nüfuzu həll etdi. 2003-cü ilin fevralında ABŞ-da keçirilən «Şərq-Qərb Enerji Dəhlizi reallıqdır» beynəlxalq konfransında iştirak edən ulu öndər maliyyə qurumlarının rəhbərləri ilə danışıqlar apararaq məsələnin müsbət həllinə nail oldu. 2004-cü ilin fevralında Bakıda «Gülüstan» sarayında prezident İlham Əliyevin iştirakı ilə BTC-nin maliyyələşdirilməsinə aid son sənəd imzalandı. 2006-cı il iyulun 13-də Ceyhanda üç dəniz əfsanəsi sayılan BTC-nin

rəsmi açılış mərasimində iştirak edən prezident İlham Əliyev kəmərin fəaliyyətə başlaması ilə Azərbaycanın qarşısında yeni üfüqlər açılacağını, iqtisadi cəhətdən çox zəngin ölkəyə çevriləcəyini, ölkədə bütün sosial problemlər öz həllini tapacağını söylədi. Zaman bu sözlərin doğruluğunu sübuta yetirdi. Ölkəmizə güclü maliyyə axını gəlməyə başladı ki, bu qeyri-neft sektorunun inkişafına, yeni xidmət sahələrinin yaranmasına, işsizlik səviyyəsinin aşağı salınmasına gətirib çıxardı. Azərbaycan regionun söz sahibinə çevrilən ölkə oldu. 1999-cu ildə «Şahdəniz» qaz – kondensat yatağının aşkar edilməsi ilə 21-ci əsrdə ölkəmiz neftlə yanaşı qaz ixrac edən ölkəyə çevrildi. 2001-ci martın 12-də Azərbaycan prezidenti Heydər Əliyevin Türkiyəyə rəsmi səfəri zamanı «Azərbaycan təbii qazının Türkiyə respublikasına tədarük edilməsinə dair Azərbaycan və Türkiyə respublikaları arasında təbii qazın satışı və alışı haqqında müqavilə», 2001-ci il sentyabrın 29-da Gürcüstan prezidenti Eduard Şevardnadzenin Bakıya səfəri zamanı «təbii qazın Gürcüstan respublikası ərazisindən tranziti, nəql edilməsi və satışına dair Azərbaycan və Gürcüstan respublikaları arasında saziş» imzalanmışdır. 2007-ci il iyulun 3-də xəzərin azərbaycan sektorundakı «Şahdəniz» yatağından hasil edilən qazın regionun ikinci böyük layihəsi olan Bakı-Tibilisi –Ərzurum qaz boru kəməri ilə Türkiyənin qaz kəmərləri sisteminə daxil olması nəticəsində Azərbaycan dünya bazarında qaz satan ölkə kimi də tanınmağa başladı.(3, s.231) Bu gün Azərbaycan qazı ölkəmizin enerji təhlükəsizliyini təmin etməklə yanaşı, həm də qonşu ölkələrə ixrac edilir. BTC kəməri vasitəsilə qaz nəinki Türkiyəyə həm də Yunanıstana satılır. 2008-cu il noyabrın 18-də işə salınan Türkiyə-Yunanıstan qaz kəməri Azərbaycan-ABŞ enerji əməkdaşlığında mühüm hadisə oldu. Kəmər eyni zamanda Azərbaycan, Türkiyə və Yunanıstan arasında bölgədəki yeni iş birliyinə rəvac verdi. Boru xəttinin açılış mərasimində çıxış edən Azərbaycan prezidenti İlham Əliyev bu başlanğıcın uğurlu olacağını bildirib: «Bu gün Türkiyə ilə Yunanıstan arsında qaz xətlərini birləşməsi bölgəyə yenilik və yeni əməkdaşlıq imkanları gətiribdir. Enerji sahəsində mövcud olan əməkdaşlığın yeni formatı yaranıb və mən əminəm ki, bu başlanğıc çox uğurlu olacaq. Mən şübhə etmirəm ki, bundan sonra yeni addımlar atılacaq və bölgədə sabitliyin, əməkdaşlığın, təhlükəsizliyin, o cümlədən enerji təhlükəsizliyinin təmin olunması üçün bütün lazimi tədbirlər görüləcək». Bütün bunlar isə ölkəmizin Avropanın enerji təhlükəsizliyində oynadığı rola dələlət edir. Azərbaycanın Cənubi Qafqazın lider ölkəsi olaraq Avropa bazarlarına təhlükəsiz və stabil şəkildə enerji resurslarının çatdırılması üçün inşa edilən boru kəmərlərinə sahib olması və tranzit məkanının əsas aktoru rolunda çıxış etməsi ölkəmizin imkanlarının daha da artırır. BTC, BTƏ layihələri artıq regional müstəvidən çıxıb və qlobal xarakter daşıyır. Sözsüz ki, bu layihələr olmasaydı hər hansı bir «Cənub Dəhlizi»ndən söhbət də gedə bilməzdi və Avropanın enerji təhlükəsizliyi məsələləri başqa istiqamətdə həll olunardı. Son illər azərbaycanın enerji resurslarına olan maraq daha da artıb. Ölkəmizin nəhəng «Şahdəniz» qaz–kondensat yatağının işlənməyə başlaması isə enerji təchizatının şaxələndirilməsinə olan ümidləri daha da artırıb. Ölkəmizin xəzərin milli sektorumuzda yerləşən hissəsində böyük enerji resuslarının işlənməsi sahəsində transmilli şirkətlərlə uğurlu əməkdaşlıq təcrübəsi var. Son illər azərbaycanın enerji sektorunda baş verən ciddi irəliləyiş, neft və qaz yataqlarının intensiv işlənməsinə start verilməsi, enerji daşıyıcılarının dünya bazarlarına sabit nəqli üçün regional neft və qaz kəmərlərinin uğurlu istismarı Avropa qitəsində bu ölkənin etibarlı enerji tərəfdaşı imicinin formalaşmasına şərait yaradıb. Çünki hazırda enerji amili ölkələrarası siyasi münasibətləri tənzimləyən faktor kimi çıxış edir. Azərbaycan artıq Avropanın enerji təhlükəsizliyinin təminatında mühüm ölkə sayılır. (4, s.112)Enerji təhlükəsizliyi məsələləri nəinki enerji resursları istehlak edən, o cümlədən onları hasil edən ölkələrdə ciddi şəkildə müzakirə olunur. Türkiyə, Yunanıstan və İtaliya Adriatik dənizinin dibi ilə Yunanıstanla İtaliya-

nı birləşdirəcək qaz kəmərinin inşasının planlaşdırılması isə Avropaya Xəzər dənizindən təbii qaz satışı mənbələrinin diversifikasiyasına kömək edəcək. Kəmənin 2012-ci ildə işə salınması nəzərdə tutulur. Onun vasitəsilə 8 milyard kubmetr qaz nəql olunacaq. Azərbaycan hətta Xəzər-Qara dəniz-Baltik enerji tranzit məkanının yaradılması təşəbbüslərini də dəstəklədiyini açıqlayıb. Krakov, Vilnğs, Kiyev və Bakıda keçirilən 4-cü enerji sammitində «Sarmatiya» beynəlxalq boru kəmərləri müəssisəsi strukturunun yaradılması və Odessa-Brodı-Plotsk-Qdansk neft kəmərlərinə ölkəmizin marağı xüsusi vurğulanmışdır. Bu, Xəzər dənizinin nəhəng enerji resursları üçün Avropa bazarlarına əlavə nəqletmə yolunu açır. Eyni zamanda bu layihə Xəzər-qara dəniz-Baltik dənizi regionlarında yerləşən dövlətlər arasında çox səmərəli regional əməkdaşlığı daha da möhkəmləndirəcək. Ölkəmizin də dəstəklədiyi və Avropanın enerji təhlükəsizliyinin qarantı hesab olunan «NABUKKOo» layihəsi isə bu gün daha çox aktuallıq kəsb edir. Dahi bəstəkar Cüzeppe Verdinin Babil şahı Navuxodonosorun həyatından bəhs edən və 1842-ci ildə ilk dəfə Milanda oynanılan operasının adından götürülmüş «NABUKKO» qaz kəmərinin inşası layihəsi indi qərb üçün həyati vacib əhəmiyyətə malikdir. Hələ 2002-ci ildə meydana gələn bu layihə Xəzər hövzəsinin yəni Türkmənistan, Qazaxıstan və Azərbaycanın erenji daşıyıcılarının Türkiyə və Balkan yarımadası vasitəsilə Mərkəzi Avropaya ötürülməsini nəzərdə tutur. Uzunluğu 3300 km, layihə dəyəri 8 milyard avro olan boru kəməri vasitəsilə ildə 31 milyard kubmetr təbii qazın Avropaya daşınması planlaşdırılır. Kəmərin inşası 2014-cü llədək yekunlaşmalıdır. «NABUKKO» boru kəməri ilə 2012-ci ildə Azərbaycan sonra Qazaxıstan və Türkmənistan qazının nəqli nəzərdə tutulur. Növbəti mərhələdə, yəni 2017-ci ildə bu kəmərə İran, İraq və Misir qazının qoşulması planlaşdırılır. Layihənin icrası məqsədilə Türkiyənin «BOTAŞ», Avstriyanın «OMV», Bolqarıstanın «Bulqarqaz», Rumıniyanın «Transqaz», Macarıstanın «MOL» və Almaniyanın «RVE» şirkətlərinin iştirakı ilə beynəlxalq konsorsium yaradılıb. Hər bir tərəfdaş şirkətin konsorsimda payı 16,67 % təşkil edir. Kəmərin inşası hesabına Avropa bir mənbədən olan enerji təchizatını aradan qaldırmaq və Rusiyadan asılılığı minimuma endirmək niyyətindədir. Bu gün «köhnə dünya»nın təbii qaza olan tələbatının böyük hissəsi Rusiyanın «Qazprom» şirkəti tərəfindən təmin edilir və bu tələbat ilbəil artır. Hesablamalara görə, 2020-ci ildə Avropa birliyi ölkələrində təbii qaz istehlakının həcmi ildə 620 mlrd kubmetrə çatacaq ki, bunun da 500 mlrd. kubmetrini idxal qazı təşkil edəcək. Rusiya isə son zamanlar təbii qaz təchizatı sahəsində dominatlıq edərək, enerji resurslarından siyasi alət kimi istifadə edir. Belə ki, 2006-cı ilin yanvarında Rusiyanın Ukrayna ilə təbii qazın qiyməti ilə bağlı yaranan mübahisə nəticəsində bu ölkəyə qaz təhcizatını dayandırması Avropada «soyuq duş» effekti yaratmışdı. Daha sonra Rusiyanın Belarus və Gürcüstanla münasibətlərində də eyni hərəkətlərə yol verməsi, həmçinin Gürcüstanla müharibə Avropada bu ölkənin nə dərəcədə etibarlı enerji təchizatçısı olması barədə sualların yaranmasına rəvac verdi. Rusiya rəsmilərinin isə dəfələrlə MDB ölkələri ilə yaşanan problemlərin siyasi xarakter daşımaması və Avropanın qaz təminatı ilə heç bir əlaqəsinin olmaması barədə verdikləri bəyanatlarına baxmayaraq, qərb dövlətləri enerji təhlükəsizlikləri barədə ciddi düşünməyə başladı. Avropa Birliyinin energetika komissarı Andris Piebalqs bildirmişdi ki, Rusiyanın Cənubi Qafqazdakı son davranışları alternativ kəmər marşurutlarını indi son dərəcə mühüm edib.(5, s.92) Elə bu səbəbdəndir ki, enerji təchizatının şaxələndirilməsi məsələsi gündəmə gəldikdə diqqət ilk növbədə Azərbaycana yönəlir. Azərbaycanın enerji daşıyıcıların difersifikasiyasında maraqlı olması «NABUKKO» layihənin gercəkləşmə perspektivinə olan ümidləri daha da artırır. Layihə meydana çıxarkən ölkəmiz tranzit və təchizatçı ölkə kimi nəzərdən keçirilirdi. Lakin Rusiyanın hər vəclə «NABUKKO» layihəsini əngəlləməyə çalışması və bu kontekdə Türkmənistanın bütün qaz ehtiyatlarının öz ölkəsi

vasitəsilə Avropa bazarlarına çıxarmaq istəməsi tikiləcək boru kəmərinin qazla doldurulmasını sual altına qoydu. Lakin Türkmənistan prezidenti Qurbanqulu Berdiməhəmmədov qeyd edib ki, ölkəsi Avropaya hər il ixrac etmək üçün 10 milyard kubmetr həcmində təbii qaz ehtiyatı saxlamaq niyyətindədir. Xatırladaq ki, türkmən qazının «NABUKKO» ya qoşulmasının ən qısa yolu Azərbaycandan keçir. Təsadüfi deyil ki, Türkmənistanla Azərbaycanı birləşdirəcək «Transxəzər» qaz kəməri layihəsi də gündəmdə olan proyetklərdən biridir. Həmin boru kəməri ilə Azərbaycana çatdırılacaq türkmən qazı Bakı-Tibilisi –Ərzurum kəməri vasitəsilə Türkiyəyə nəql edilə bilər ki, buradan da onun «NABUCCO» ilə Avropaya ixrac edilməsi mümkündür. Bu gün isə Azərbaycan layihədə əsas təchizatçı ölkə sayılır. Heç təsadüfi deyil ki, dövlət başçısı İlham Əliyev ötən ilin noyabrın 25-də İtaliyaya rəsmi səfəri zamanı bu ölkənin «Rai international» telekanalının «foks neks» proqramına müsahibəsində bildirmişdir ki, təchizatçı kimi Azərbaycanın ən mühüm məqsədlərindən biri enerji daşıyıcılarının şaxələndirilməsinə nail olmaqdır. Şaxələndirmə təkcə istehlakçılar üçün deyil, təchicatçılar üçün də vacibdir. Xüsusilə də dünyanın enerji bazarına birbaşa çıxışı olmayan ölkələr üçün. Bu ilin yanvarında Macarıstanın paytaxtı budapeştdə keçirilən «NABUKKO» sammiti isə layihənin gerçəkləşməsi istiqamətində atılan ən mühüm addımlardan hesab oluna bilər. Sammitdə iştirak edən Azərbaycan dövlət başçısı İlham Əliyev çıxışı zamanı vurğulamışdır ki, «Azərbaycan Avropanın enerji təhlükəsizliyi məsələsində mühüm rol oynayır. Azərbaycan etibarlı tərəfdaş ölkədir və öz təbii sərvətlərini xəzər hövzəsindən Avropaya nəql edir. Azərbaycanın həyata keçirdiyi neft-qaz siyasəti xalqın mənafeyinə xidmət edir. Biz boru xətlərinin çoxşaxəliliyinin tərəfdarıyıq. Azərbaycanın «NABUKKO» layihəsini həmişə dəstəkləyib və bundan sonra da bu dəstəyi davam etdirəcək». Praqada keçirilən «Cənub dəhlizi –Yeni ipək yolu» sammiti isə Cənubi Qafqaz ölkələrini birləşdirəcək infrastruktur layihələrin digər sahələrdə əməkdaşlıq üçün katalizator rolunu oynayacaq. İyulun 13-də Türkiyənin paytaxtı Ankarada «nNABUKKO» layihəsi ilə bağlı tranzit ölkələrin iştarakı ilə hökumətlərarası saziş imzalanması isə köhnə dünyanın layihəyə nə dərəcədə önəm verməsinin göstərgəsi sayıla bilər. Çünki Rusiyadan yan keçən boru xəttinin reallaşması Avropanın bu ölkənin enerji şantajından qurtulması deməkdir. Sazişə görə Avropa Birliyi Azərbaycandan birinci mərhələdə əsas təhcizatçı ölkə olaraq 8 milyard kubmetr qaz almaq istəyir. Lakin «NABUKKO»nun gerçəkləşmə perkpektivi hələ də dumanlı görünür. Layihədə ən böyük tranzit ölkə olan Türkiyə «NABUKKO» ilə bağlı həm Azərbaycan, həm də Avropa üçün qəbul edilməz olan bir sıra şərtlər irəli sürür. Bura, kəmər ilə nəql edilən Azərbaycan qazının 15%-nin daxili tələbat üçün ucuz qiymətə Türkiyədə istifadə edilməsi, bu ölkənin təkcə tranzit yox, eyni zamanda Azərbaycan qazını alıb-satan ölkə olmaq istəyi və nəhayət məqbul olmayan tranzit qiymətləridir. (6, s.9)Hətta Fransanın «Qaz de Frans» şirkətinin konsorsiuma qoşulmaq məsələsi gündəmə gəldikdə Türkiyə bu ölkənin Ermənistan ilə yaxın münasibətləri səbəbindən buna etiraz etmişdi. Layihənin reallaşmasının maliyyə baxımından öz həllini tapmaması da «NABUKKO» ya olan ümidləri xeyli azaldır. Azərbaycanın getdikcə qaz idxal edən ölkədən təchizatçıya və tranzit məkanına çevrilməsi və təsdiq olunmuş qaz ehtiyyatlarının 2 trilyon kubmetrə, perspektivdə isə 5 trilyona çatdırılması əlavə difersifikasiyanı gündəmə gətirirdi. Belə olan təqdirdə Azərbaycan «Şahdəniz»in 2-ci fazasından hasil edilən qazın bir hissəsini Rusiyaya kommersiya baxımından daha sərfəli qiymətə satmaq qərarına gəldi. Dövlət başçısı İlham Əliyevin 2009-cu il iyunun 29-da Rusiyaya səfəri zamanı isə Azərbaycan qazının alış-satışı ilə bağlı ARDNŞ və Rusiyanın «Qazprom» şirkəti arasında müqavilə imzalandı. Dövlət başçısı imzalanan müqavilədən sonra çıxışı zamanı bildirmişdi ki, «Azərbaycan qazının Rusiyaya ixrac olunması münasibətlərimizin yeni sahəsidir. Azərbay-

can bu yaxınlarda qaz ixrac edən ölkəyə çevrilmişdir. Bu gün Azərbaycan qazı artıq dünyanın 4 ölkəsinə nəql edilir və gələn ildən başlayaraq, həm də Rusiyaya ixrac olunacaqdır. Ölkəmizin qaz potensialı kifayət qədərdir və mən deyə bilərəm ki, bu il qaz hasilatının səviyyəsi 27 milyard kubmetr olacaqdır. Növbəti ildə isə biz 30 milyard kubmetrdən çox qaz çıxarmağı planlaşdırırıq. Bizim üçün Rusiya ilə qaz sahəsində əməkdaşlıq həm də yeni bazara çıxmaq, qaz təchizatının şaxələndirilməsini təmin etmək imkanıdır görünür, Azərbaycan perspektivləri qeyri-müəyyən layihə ilə bağlı problemlərin həllini gözləməkdənsə daha real və sərfəli təklif üzrə konkret danışıqlara başlamağı qərara alıb. Azərbaycan Rusiya ilə imzaladığı müqavilə ilə xəzərin təbii qazına çıxış barədə gedən rəqabətdə Rusiyaya da üstünlük verdiyini nümayiş etdirdi. Həmin saziş ilə Rusiyanın qaz monopoliyası «Qazprom» Xəzərdə «Şahdəniz» qazının ikinci fazası üçün üstünlük verilən müştəri kimi nəzərdə tutulur. «Qazprom» un müqavilənin imzalanmasından sonrakı açıqlamasında deyilirdi ki, indi potensial alıcılar Azərbaycanla qaz müqaviləsi imzalamaq üçün daha cəlbedici təkliflər irəli sürməlidirlər. Moskva 2010-cu ilin yanvar ayından «Şahdəniz» yatağından az miqdarda qaz almağa başlayacaq. Sonrakı illərdə isə idxalın artırılması nəzərdə tutulur. Rusiya bu qazı nəzərdə tutulun «Cənub axını» boru xətti ilə Avropaya satmağı palanlaşdırır. Azərbaycanın regional müstəvidə cərəyan edən istər siyasi, istərsə də iqtisadi proseslərə müsbət təsir göstərməsi faktı artıq danılmaz bir reallaqdır. Cənubi Qafqazın lider dövləti kimi Azərbaycan regional enerji təhlükəsizliyinin təmin olunmasında, o cümlədən qərb dəyərlərinin tətbiqində əvəzolunmaz rol oynayır. Bu gün Azərbaycanın iştirakı olmadan regionda heç bir iqtisadi layihənin reallaşdırılması mümkün deyil. Azərbaycanın enerji siyasəti regional müstəvidən çıxmış, qlobal müstəviyə daxil olmuşdur.

### *ƏDƏBIYYAT*

1.Əhmədov M. Azərbaycan: yeni neft erası və beynəlxalq siyasət. Bakı, 1997
2.Nadirov A.A., Əliyev Q.M. "Azərbaycan neft strategiyasının bayraqdarı" Bakı, "Dirçəliş-XXI əsr", 2004, №3.
3.Araz Osman Nuri. Azerbeycanın Hazar ekonomisi ve stratejisi. İstanbul, 2001, 231s.
4.İrfan Ülkü. Bağımsızlıkatan sonra Azerbeycan. İstanbul, 2000, 192 s.
5.Шорохов В. Нефть и политика Азербайджана. Москва, 1997, 145с.
6.Юсифзаде Х. Статус Каспия. Вестник МВС АР, 1996, №2-3.

**МАМЕДОВ С.**
**ДИВЕРСИФИКАЦИЯ ЭНЕРГЕНОСИТЕЛЕЙ СООТВЕТСТВУЕТ НАЦИОНАЛЬНЫМ ИНТЕРЕСАМ АЗЕРБАЙДЖАНА**
В первые годы истории независимости Азербайджана стояли перед государством многочисленные экономические и политические проблемы. Нефть и газ воспринимались как основные средства при разрешении этих проблем. При нехватки материальных средств Азербайджанская Республика придавала большое значение иностранным инвестициям. В статье проблемы диверсификации глубоко анализируется.

**MAMEDOV S.**
**DIVERSIFICATION OF THE ENERGY CARRIER AZERBAIJAN IT IS SUITABLE TO NATIONAL INTERESTS.**
Independence in the first years of our history, he was considered as like one of basic means liquidate of the forthcoming economical and social difficulties of the country. In such condition, limitation of the finance means had turned involving of the foreign companies and investors to the strategical necessity. These problems have been analysed in the article in detail.

***Rəyçilər: s.e.n.E.Mirbəşiroğlu, t.e.d.A.Məmmədov.***
***BDU-nun Politologiya və sosiologiya kafedrasının 03 oktyabr 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №02).***